

## RƏVAN ƏLİZADƏ

**Rəvan Məzərxan oğlu Əlizadə** 1994-cü ildə Şəki rayonunun Aşağı Daşağıl kəndində anadan olmuşdur.

2011-ci ildə Şəki rayon Rəşib bəy Əfəndiyev adına 10 saylı tam orta məktəbi; 2018-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişdir.

2003-cü ildən etibarən bədii yaradıcılıqla məşğul olmağa başlamışdır.

"Azadlıq və zaman" qəzeti; "Azərbaycan XXI əsrə istedadlarla" elmi-publisistik toplusu və s. mətbu orqanlar müəllifin yaradıcılığına müraciət etmişdir.

Hazırda oxuduğunuz "Yeni uğur" poeziya antologiyasının redaktorudur.





## CƏNNƏT ALMASI

Hərdən bir hüznlü mahnıda belə
Tərpənir qəlbimin sapsarı simi...
Sənsizlik başlayır sizin qapıdan,
Uzanır düz bizim qapıya kimi!

Uzanır sənsizlik, illərə dönüb –
Üçillik yoxluğun üç əsr kimi...
Ruhum səndən heç vaxt keçə bilmədi,
Ömrünə düşmüşəm mən kəsir kimi!

Gözlərin zillənir mənsiz ünvana,
Səndən çox uzaqda bir ürək yanır...
Hər şey cəhənnəmə, ən pisi budur:
– İndi saçların da mənsiz uzanır!

Qışqırsam, bağırsam fayda nədir ki,
Getmisən sən məndən getdiyin qədər...
Heç şeytan yolumdan etmədi məni,
Sən məni yolumdan etdiyin qədər!

Nəysə, anlamarsan sənki bunları –
Yat, gecəm yuxunda şirin olmasın...
Sən də Həvva qədər günah etmisən,
Sevgisiz yuxular cənnət alması!

# TƏNHA ADAM

Soruşma halımı, ey həsrət gözlüm,
Dumandan dağlara bir çən kimiyəm...
Halım həminkidir, məni bilirsən –
Tənhayam, sənsizəm, mən mən kimiyəm!

Özüməm dərdimin ölçü vahidi,
Ürəyim sənintək yükün altdadı...
Mənim xoşbəxtliyim yad ev içində,
Kiminsə qolunda sakitcə yatdı!

Həsrət gözlərimdən körpülər salıb,
Qəddimi əymisən cavan yaşımda...
Dünya da oxunu itirib nədi,
Fırlanır eləcə mənim başımda!

Mənəm dörd divardır sadiq dostlarım,
Saatın əqrəbi hicrana sarı...
Əllərim göylərdən asılı qalıb –
Daha duamı da eşitmir Tanrı!





# MƏNİM YARIM

Mən daha xəyalda edə bilmirəm:
– Nə vaxtsa mən səndə tapım vüsalı...
Mən Adəm oğluyam – tezcə aldanan,
Sənsə o aldadan Həvva misalı!

Məni sənliyimdən məhrum eylədin,
Qovdurdun Tanrıya özümdən məni...
Mən səni gözümdə ucaltdım amma,
Bilməzdim salarsan gözümdən məni!

Gəl, mənə bir dəfə mən tərəfdən bax –
Görərsən içimdə olan qadını...
Adını soruşma, yaxşı bilirsən,
Atan qoyub elə onun adını!

Paralel dünyanam bil ki, mən sənin –
Həyatda yarımsan, məndə yarımsan...
Məsələn: – Dünyada başqa birinin,
Məndəsə ömürlük mənim yarımsan!

Sən ocaq olsaydın, sən od olsaydın,
Hər gün alovunda tək mən bişərdim...
O qədər bəxtsizəm, and olsun göyə:
– Cəhənnəm olsaydın sənə düşərdim!

## HÖRÜKLƏR HAQQI

And olsun deyirəm: – Dünya malında
Mənim zərrə qədər gözüm yoxdu heç...
Sənsiz mən o qədər günah etmişəm,
Daha ölməyə də üzüm yoxdu heç!

Dünya da o qədər xoşuma gəlmir,
Sanki hər şey mənə uzaqdı, yaddı...
Yenidən sevməkmi?...Yox mümkün deyil,
Sənin saçındakı hörüklər haqqı!

Birdə bu yağış var, ürək ağrıdan –
Mənim təkliyimi üzümə vurur...
Nəinki çay içmək, mahnı dinləmək –
Sənsiz hər şey mənim gözümə durur!

Daha otağımdan çıxmıram çölə,
Mənim xəyallarım səssizləşibdi...
Birdə, sənsiz qalan tək mən deyiləm,
İndi yağışlar da sənsizləşibdi!





## YUXUSUZ GECƏLƏR

Gecələrdə adam var –
Yəni, gülüm, mən varam...
Dünya mənə dar gəlir,
Bu dünyaya sığmaram!

Sənki məndən uzaqda –
Özgə qollarındasan...
Yəqin ki, bir axmağın
Əyri yollarındasan!

Məndən keçib gedsən də,
Getmədi son gedişin...
Səndə günah görmürəm,
Getmək idi vərdişin!

Hərdən dünya tərəfdən
Səndən ətir duyuram...
Mən üzümü, əzizim,
Göz yaşımla yuyuram!

Bilmirəm, kim yazıbdı
Mənə bu qara baxtı...
Bədbəxtlərtək oyağam,
Xoşbəxtlər yatan vaxtı!

# SALAM, XƏYALIMDAKI

Salam, xəyalımdakı,
Orda necəsən indi?
Gələrdin kaş yanıma,
Mənə burda çətindi!

Yəqin, orda xoşbəxtsən –
Dəyən yoxdu xətrinə...
Mənsə burda möhtacam
Saçlarının ətrinə!

Orda hava mülayim,
Burda soyuqdur yaman...
Burda bir gün bir ömür,
Orda tez keçər zaman!

Orda biz birlikdəyik,
Burda yerin görünür...
Burdakılar əyninə
Ayrılığı geyinir!

Salam, xəyalımdakı,
İndi mən yaman pisəm...
Hərş ey gözəl olardı,
Heyif ki, çox sənsizəm!





# DƏRS

Bu aralar nədənsə
İşlərim də tərs gedir...
Sakit dur, mane olma –
Ürəyimdə dərs gedir!

Yenə iki almışam
İmtahandan kəsilib...
Səni yazdım qəlbimə,
Baxdım, gördüm əzilib!

Mənim ürəyim axı,
Yazı taxtası deyil...
Oynadığın həyatım,
Uşaq baxçası deyil

Nə yaxşı bir şagirdsən,
Nə yaxşı müəlliməm...
Nə istəyirsənsə et,
Mən sinifdə heç kiməm!

Yeni kəşfim – toplasam,
Ayrılıq, mən qəm edir...
Həsrəti mənə vursam,
Son nəticə sən edir!

# FƏHLƏ QARDAŞIM

Mənim fəhlə qardaşım,
Qəlbin dərdin közüdü...
Əlinin hər qabarı
Bir zəhmətin izidi...

Sən bilirsən həyatda –
Necədi pis dolanmaq...
Gecəni yorğun yatıb,
Səhər yorğun oyanmaq...

Həyatın hamar yolu,
Alnının qırışıdı...
Bəlkə də, sənin ömrün
Kiminsə qarğışıdı...

Şərəf desən səndədi,
Hər adamda tapılmır...
Çox təəssüf ki, çörək
Pulsuz cibə satılmır!